# SERYOKİN VİKTOR VASİLYEVİÇ



23 mart 1944-cü ildə Gürcüstan Respublikasının Tbilisi şəhərində anadan olmuşdur. Orta təhsilini Tbilisi şəhərində almışdır. 1986-cı ildə Kremençuq Mülki Aviasiya Məktəbini bitirdikdən sonra Zabrat Əlahiddə Aviasiya dəstəsinə məxsus Mİ-2 vertolyotuna pilot təyin edilmişdir. Azərbaycanda hərbi aviasiyanın yaradılmasında Viktorun da xüsusi xidmətləri olmuşdur. İşlədiyi müddət ərzində "Əmək veteranı" medalına və "Ən yaxşı təyyarəçi" adına layiq görülmüşdür. Azərbaycan torpaqları Ermənistan tərəfindən işğala məruz qaldığı zaman Seryokin Viktor Vasilyeviç vertolyot heyəti tərkibində müharibə zonasına uçuşlar etmiş, əhalinin təhlükəli zonadan çıxarılmasında xüsusi fədakarlıq göstərmişdir. Viktor Seryokin bir komandir kimi Ağdam, Şuşa, Ağdərə rayonları ərazisində aparılan döyüş əməliyyatlarının fəal iştirakçısı olmuşdur. Komandiri olduğu vertolyot erməni yaraqlıları tərəfindən dəfələrlə atəşə tutulduğundan zədələnmişdi. Heyət üzvləri cəsur komandirin rəhbərliyi altında çox qısa müddətdə, bəzən döyüş gedə-gedə vertolyotu təmir edib, verilən tapşırıqları uğurla yerinə yetirirdilər. Vertolyot heyəti tərkibində Azərbaycan torpaqlarının müdafiəsi zamanı verilən bütün tapşırıqları yerinə yetirən V.Seryokin 1992-ci il yanvarın 28-də Şuşa-Ağdam marşrutu ilə sərnişin aparan Mİ-8 vertolyotu atəşə məruz qalmışdır. Viktor sərnişinləri xilas etmək üçün alova bürünmüş vertolyotu çətinliklə də olsa təhlükəsiz zonaya yönəldə bilmişdir. Bununla da itkinin qarşısı alınsa da, Viktor özü də heyət üzvləri ilə birlikdə həlak olmuşdur. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. İki qızı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 25 noyabr 1992-ci il tarixli 337 saylı Fərmanı ilə Seryokin Viktor Vasilyeviç ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.